

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 205 (24.342)

*4 noyabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Türk dövlətləri ilə münasibətlərin möhkəmlənməsi xarici siyasətin başlıca uğurudur

### *Azərbaycan Prezidenti İlham Əliyev Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə iştirak edib*

Noyabrın 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatması məmnunluqla vurğulandı.

Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Xankəndi və Xocalı şəhərlərində Azərbaycan Bayrağını ucaltması münasibətilə təbrik etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşünün ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.

Görüşdə ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*



Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşünü açaraq qonaqları salamladı.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

– Hörmətli Kasım-Jomart Kemeleviç,

Hörmətli dövlət və hökumət başçıları,

Əziz dostlar,

İlk növbədə, qonaqpərvərliyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür edir və qardaş Qazaxıstana Türk Dövlətləri Təşkilatına qarşıdan gələn sədrliyi dövründə müvəffəqiyyətlər arzulayıram. Türk Dövlətləri Təşkilatına bir il ərzində uğurlu sədrlik münasibətilə qardaş Özbəkistanı təbrik edirəm.

Yenidən Astana şəhərində olmağıma şadam. Bu, son 2 ildə Qazaxıstana üçüncü səfərimdir. Hər səfərimdə Qazaxıstanda uğurlu islahatların və genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsinin şahidi oluram. Bütün əldə edilmiş uğurlar münasibətilə Qazaxıstan rəhbərliyini təbrik edirəm.

Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir.

Son iki il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər.

Oktyabr ayında Şuşa şəhərində Birinci Türk Dünyası Mədəniyyət Forumu təşkil edilmişdir. Fürsətdən istifadə edərək, Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsinə verdiyiniz dəstəyə görə minnətdarlığımı bildirirəm.

Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

Birgə sərmayə fondlarının yaradılması prosesi başlamışdır. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu yaradıldı.

2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artmışdır.

Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib.

Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir.

Hörmətli həmkarlar,

Əfsuslar olsun ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır. Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır.

Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamış və burada qeyri-qanuni qondarma rejim yaratmışdı. Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Ermənistan şəhər və kəndlərimizi yerləyeksan etmiş, tarixi və dini abidələrimizi dağıtmış və təhqir etmişdir.

Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi.

Ermənistanın baş nazirinin 2019-cu ildə o vaxt işğal altındakı Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlara son qoydu. Ermənistan rəhbərliyi o vaxt Azərbaycanı "yeni torpaqlar uğrunda yeni müharibə" ilə hədələyirdi.

2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən və 27 il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını özümüz təmin etdik. Cəmi 44 gün ərzində davam edən İkinci Qarabağ müharibəsi 10 noyabr 2020-ci il tarixində Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir.

Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasətinə baxmayaraq, məhz Azərbaycan Ermənistanla sülh sazişi imzalamağa hazır olduğunu bəyan etdi və beş baza prinsipini təqdim etdi.

2022-ci ildə Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, onun real əməlləri tamamilə



məntiqsiz və təzadlı idi. Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazilərində qalmaqda davam edirdi. Ermənistanın baş nazirinin bu il sentyabrın 2-də qondarma qurumun dırnaqarası "müstəqilliyi"ni təbrik etməsi və Qarabağda keçirilmiş 9 sentyabr dırnaqarası "prezident seçkiləri" ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik və birbaşa təhdid idi.

2023-cü il sentyabrın 19-da işğaldan azad edilmiş torpaqlarımızda qanunsuz erməni silahlı birləşmələri tərəfindən qəsdən yerləşdirilmiş minaların partlaması 6 mülki şəxsin və polis əməkdaşının həyatına son qoydu. Bundan sonra Azərbaycan konstitusiya quruluşunun bərpası və qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. 23 saat ərzində bitən əməliyyat nəticəsində Azərbaycan özünün suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdi. Antiterror tədbirləri nəticəsində mülki insanlara və mülki infrastruktura heç bir ziyan dəymədi. Azərbaycan beynəlxalq humanitar hüquqa tam riayət etdi. Bölgəyə iki dəfə səfər edən BMT missiyası bu faktları təsdiq etmişdir.

Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur.

Biz Böyük Qayıdış Proqramını icra edirik. Artıq keçmiş məcburi köçkünlər – bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevə bir daha minnətdarlığımı bildirirəm. Avqust ayında birgə iştirakımızla məktəbin açılış mərasimini məmnuniyyətlə xatırlayıram. Qazaxıstanın Azərbaycana hədiyyəsi olan Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Prezident Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür.

Əziz dostlar,

Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq.

Təşəkkür edirəm.

***

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin bütün türk dövlətlərində qürur doğurduğunu və bunun sülh üçün geniş imkanlar açdığını vurğulayaraq dedi: "Can Azərbaycan Qarabağın otuzillik işğalına Vətən müharibəsindən sonra birdəfəlik son qoydu. Bu tarixi uğurdan son dərəcə qürur və sevinc hissi duyuruq. Bununla da bölgəmizdə davamlı sülhə bir addım da yaxınlaşdıq. Açılan fürsət pəncərəsinin dəyərləndirilməsi ən böyük arzumuzdur. Ermənistanın Azərbaycan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi vacibdir. Azərbaycanın qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək kommunikasiya xəttinin həyata keçirilməsi də böyük önəm daşıyır. Bu xəttin açılması bütün bölgə ölkələrinin rifahına ciddi töhfə verməklə yanaşı, Türkiyəni də Ata yurdumuz olan Orta Asiya ilə birləşdirəcək. Bu prosesin uğurla başa çatdırılması üçün Türk dünyası olaraq Azərbaycana dəstəyimizi davam etdirməliyik".

Türkiyə Prezidenti Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokolla bağlı ardıcıl işlərin görüldüyünü də diqqətə çatdıraraq bildirdi: "Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokol Məclisimiz tərəfindən Türk Dövlətləri Əməkdaşlıq Günü olan 3 oktyabr tarixində qəbul edildi.

*Ardı 2-ci səhifədə*

Noyabrın 1-də Protokolun təsdiqlənməsi prosesini başa çatdırdıq. Bütün üzv ölkələri Protokolun ən qısa müddətdə həyata keçirilməsi üçün lazımi addımları atmağa dəvət edirəm".

Türk dövlətləri arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlərin reallaşdırıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan qeyd etdi: "Nəhəng enerji və nəqliyyat infrastrukturu layihələri türk dövlətləri arasında daim əsas və mühüm əməkdaşlıq sahəsi olub. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərləri və Trans-Anadolu boru kəməri bunun konkret nümunələridir. Xəzərin təbii qazının Türkiyəyə və Avropaya nəqli həm türk dövlətlərinin rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Ölkələrimiz arasındakı nəqliyyat şəbəkəsini inkişaf etdirmək hədəfini də xüsusi vurğulamalıyıq. Bu düşüncə ilə Xəzərdən keçən Şərq-Qərb – Orta Dəhlizin rolunun artırılması istiqamətində səylərimizi davam etdiririk".

***

Zirvə görüşündə Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev çıxış edərək türk dövlətləri arasında reallaşdırılan layihələr, tərəflər arasında əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində görülən işlər haqqında danışıblar.

***

Sonra Astana aktı və Astana Zirvə görüşünün Bəyannaməsi imzalandı.

Daha sonra mükafatlandırma mərasimi oldu.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə türk xalqlarının inkişafında böyük xidmətlərinə görə Türk Dünyasının Ali Ordenini təqdim etdi.

* * *

Noyabrın 3-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri noyabrın 3-də başa çatıb.

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

## Zəfər Günü ilə əlaqədar Naxçıvanda 1250 ailəyə sovqat göndərilib









Prezident İlham Əliyevin xüsusi diqqəti və tapşırığı ilə ölkəmizdə sosial layihələrin icrası uğurla davam etdirilir. Bütün bayramlarda və əlamətdar günlərdə aztəminatlı, şəhid, qazi və digər həssas qruplardan olan ailələrə sovqatlar verilir, yardımlar edilir.

Dövlətimizin başçısının aztəminatlı, şəhid və qazi ailələrinin sosial problemlərinin həlli istiqamətində həyata keçirdiyi tədbirlərə dəstək məqsədilə 2023-cü ilin son 5 ayı ərzində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının maliyyə dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən, ümumilikdə, 6 450 aztəminatlı, o cümlədən şəhid və qazi ailələrinə sovqat paylanılıb.

Bu tədbirlərin davamı olaraq noyabrın 3-də Zəfər Günü ərəfəsində digər bölgələrlə yanaşı, Naxçıvanda yaşayan 1250 aztəminatlı ailə üçün ərzaq bağlamalarından ibarət yardım edilib.

Yola salınma mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev iştirak ediblər.

Məlumat verilib ki, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı, o cümlədən şəhid və qazi ailələri üçün gətirilmiş bayram sovqatları müxtəlif zəruri ərzaq məhsullarından ibarətdir.

Sovqatlardan ibarət 5 avtomobil təyinatı üzrə ünvanlara yola salınıb.

**"Şərq qapısı"**

## Naxçıvanda şəhid ailələri və qazilərlə görüş olub





Noyabrın 3-də – Zəfər Günü ərəfəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailələri və qazilərlə görüşüb.

Naxçıvan şəhərindəki Heydər Əliyev sarayında keçirilən görüşdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının Zəfər salnaməsi, gənc nəsillər üçün vətənpərvərlik, milli birlik və həmrəylik nümunəsidir. Azərbaycanın bu gün əldə etdiyi bütün uğurların təməli Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərliyindən başlayır. Məhz bu dövrdən etibarən Ümummilli Liderin səyləri nəticəsində ölkəmizdə milli kadrların yetişdirilməsinə başlanılıb,



respublika iqtisadiyyatının inkişafı üçün mühüm addımlar atılıb. Xüsusilə həmin dövrdən başlayaraq milli hərbi kadrların hazırlanması həm Birinci Qarabağ müharibəsində, həm də Vətən müharibəsində öz sözünü deyib.

Qeyd olunub ki, Heydər Əliyev irsinin layiqincə davam etdirilməsinin nəticəsidir ki, dövlət başçısı cənab İlham Əliyevin son 20 illik prezidentlik fəaliyyəti nəticəsində Azərbaycan bir sıra uğurlara imza atıb. Bu dövrdə həm iqtisadi göstəricilər, həm də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər 44 günlük Vətən müharibəsində böyük Zəfərin qazanılmasına imkan verib. Həmçinin bu ilin sentyabr ayında rəşadətli Ordumuz tərəfindən həyata keçirilən lokal antiterror tədbirləri bir daha ordumuzun gücünü göstərməklə bərabər, suverenliyimizin də bərpa olunması ilə nəticələnib.

*Ardı 3-cü səhifədə*





Vurğulanıb ki, istər Vətən müharibəsi dövründə, istərsə də ordumuz tərəfindən həyata keçirilən uğurlu əməliyyatlar nəticəsində igid oğullarımız böyük qəhrəmanlıq göstərərək şəhid və qazi olublar. Bu gün ölkəmizdə şəhid ailələrinə, müharibə iştirakçılarına və qazilərə yüksək dövlət qayğısı göstərilir. Bu siyasətin də əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Dahi şəxsiyyətin bu sahədə müəyyənləşdirdiyi ən ciddi islahat şəhid ailələri və qazilərin sağlamlıqlarının və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması, onların dövlət hesabına mənzillər və minik avtomobilləri ilə təmin edilməsidir. Ulu Öndər deyirdi: ***“Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar”.*** Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət bu gün uğurla davam etdirilir. Şəhid ailələrinə diqqət və qayğı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindəndir. Dövlət başçısının qayğısı ilə bu kateqoriyadan olan vətəndaşlara mənzillər və avtomobillər verilir, həmçinin şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün məbləği mütəmadi artırılır, bu kateqoriyadan olan insanların övladlarına aylıq sosial müavinət verilir.

Diqqətə çatdırılıb ki, bu sahədə görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Belə ki, 2023-cü ilin yanvar-oktyabr ayları ərzində muxtar respublikada 31 şəhid ailəsi üzvü, 250 qazi və müharibə iştirakçısı daimi işlə təmin olunub, 18 nəfər şəhid ailəsi üzvü, 30 nəfər Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxs və müharibə iştirakçısı haqqıödənilən ictimai işlərə cəlb edilib. 40 nəfər şəhid ailəsi üzvü, 65 nəfər Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxs və müharibə iştirakçısı özünüməşğulluq proqramı üzrə qeydiyyata alınıb, aktivlərlə təmin olunması istiqamətində iş aparılır.

Zəfər Günü ərəfəsində 7 şəhid ailəsi və 8 qazinin mənzillə təmin olunacağını bildirən səlahiyyətli nümayəndə 171 şəhid ailəsi üzvünün və qazinin mənzil-məişət şəraitinin yaxşılaşdırılıdığını, mənzili yanan 1 şəhid ailəsinin evinin yenidən tikildiyini diqqətə çatdırıb. Bildirilib ki, bəhs olunan dövrdə 12 nəfər Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxs avtomobillə təmin edilib. 109 nəfər şəhid ailəsi üzvünə və 75 nəfər Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxsə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu (“Dəstək” Fondu) tərəfindən 439 min 583 manat vəsait ödənilib. Bununla bərabər, dövlət qurumlarının əməkdaşları tərəfindən şəhid ailəsinin üzvləri 500 dəfəyə yaxın ziyarət olunub.

Sonra şəhid ailəsi üzvlərinin və qazilərin problemləri dinlənilib, sualları cavablandırılıb, onların müraciətləri protokollaşdırılıb.

Sonda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailəsi üzvlərini və qaziləri 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik edib.

**“Şərq qapısı”**

## Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsinin və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. “Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin strukturu” təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

3.3. Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının və regional bölmələrinin işçilərinin say həddi barədə təkliflərini hazırlayıb bir ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

3.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

3.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 3 noyabr 2023-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 3 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) Naxçıvan Muxtar Respublikasında qida təhlükəsizliyi sahəsində qeydiyyatı və təsdiqi, idxal sağlamlıq aktının, sağlamlıq, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini, qida zəncirinin bütün mərhələlərində qida və yem məhsullarının, qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyinə, qida məhsullarının minimum keyfiyyətinə, həmçinin qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi sahələrində (bundan sonra – müvafiq sahə) dövlət nəzarətini və tənzimləməni həyata keçirən, habelə dövlət siyasətinin həyata keçirilməsində iştirak edən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Naxçıvan Muxtar Respublikasının (bundan sonra – muxtar respublika) büdcəsi və qanunla nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Naxçıvan şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.0. Agentlik aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. müvafiq sahədə dövlət siyasətinin hazırlanmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.0.2. müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirir;

2.0.3. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirir;

2.0.4. qida təhlükəsizliyi sahəsində qeydiyyatı, texniki normativ-hüquqi aktların tələblərinə uyğunluq qiymətləndirilməklə təsdiqi həyata keçirir və muxtar respublikanın Qida Təhlükəsizliyi Reyestrini aparır;

2.0.5. qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə riayət edilməsinə dövlət nəzarətini həyata keçirir;

2.0.6. idxal sağlamlıq aktı, sağlamlıq, baytarlıq və fitosanitar sertifikatları verir;

2.0.7. müvafiq sahənin inkişafını təmin edir.

### 3. Agentliyin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahədə mövcud vəziyyəti təhlil etmək, dövlət tənzimləməsi və nəzarəti sisteminin təkmilləşdirilməsi barədə təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

3.0.2. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri yerinə yetirmək;

3.0.3. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahənin inkişafı üzrə prioritetləri müəyyən etmək, Dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

3.0.4. digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.0.5. fəaliyyət istiqamətləri ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin muxtar respublikada həyata keçirilməsini təmin etmək;

3.0.6. müvafiq sahə üzrə beynəlxalq təşkilatların tövsiyələrini öz fəaliyyətində nəzərə almaq;

3.0.7. müvafiq sahədə risklərin təhlilini, risk qiymətləndirilməsini, risklərin idarə edilməsini və risklər haqqında məlumatlandırmanı həyata keçirmək;

3.0.8. qida zənciri obyektlərinin (subyektlərinin), habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyatını, qida zənciri obyektlərinin (xarici ölkələrdə fəaliyyət göstərən qida obyektləri istisna olmaqla) təsdiqini həyata keçirmək və muxtar respublikanın Qida Təhlükəsizliyi Reyestrini aparmaq, idxal sağlamlıq aktını, sağlamlıq, baytarlıq və fitosanitar sertifikatlarını vermək;

3.0.9. gömrük orqanları ilə birlikdə dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilmiş yüklər (mallar, məhsullar) üzərində baytarlıq, fitosanitar və qida təhlükəsizliyi nəzarəti ilə bağlı tədbirləri həyata keçirmək;

3.0.10. qanunla müəyyən edilmiş hallarda və qaydada müvafiq sahədə yoxlamalar aparmaq və digər dövlət nəzarəti tədbirlərini həyata keçirmək, bu sahədə aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması və (və ya) məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərarlar qəbul etmək (göstərişlər vermək);

3.0.11. bu Əsasnamənin 3.0.10-cu yarımbəndində nəzərdə tutulan qanun pozuntularının aradan qaldırılması ilə bağlı verilmiş qərarlar (göstərişlər) yerinə yetirilmədikdə, onların məcburi icrası məqsədi ilə məhkəməyə müraciət etmək;

3.0.12. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununa (bundan sonra – Qanun) əsasən müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların geri çağırılması, yığışdırılması, Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması, utilizasiyası, məhv edilməsi və birbaşa təyinatı üzrə təkrar dövriyyəyə buraxılması barədə qərar qəbul etmək;

*Ardı 4-cü səhifədə*

3.0.13. xüsusi təhlükəli heyvan xəstəlikləri baş verdikdə baytarlıq tədbirlərinin həyata keçirilməsini təmin etmək, heyvanların kəsilməsi və ya məhv edilməsi, heyvan mənşəli xammalın, baytarlıq preparatlarının, yem məhsullarının və yem əlavələrinin zərərsizləşdirilməsi və ya utilizasiya edilməsi haqqında icrası məcburi olan göstərişlər vermək;

3.0.14. fitosanitar nəzarətində olan karantin obyektlərində və bitki karantini nəzarətində olan materiallarda zərərli orqanizmləri vaxtında aşkarlayaraq materialları təcrid etmək, məhsulun tədqiqi nəticəsində təhlükəliliyi sübut edilmiş bitki, bitkiçilik məhsulları, pestisidlər, bioloji preparatlar, aqrokimyəvi maddələr və digər bitki mühafizə vasitələrinin götürülməsi, saxlanması, zərərsizləşdirilməsi, təkrar emal və ya məhv edilməsi üçün müvafiq tədbirlər görmək;

3.0.15. Qanuna əsasən elan olunmuş böhran vəziyyətinin idarə edilməsinə dair aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə plan hazırlamaq, qabaqlayıcı, məhdudlaşdırıcı və qadağanedici tədbirlər həyata keçirmək, habelə qida təhlükəsizliyi riskləri üzrə erkən xəbərdarlıq sistemləri yaratmaq;

3.0.16. səlahiyyətlərinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxmaq və inzibati tənbeh tədbirləri tətbiq etmək;

3.0.17. qida zəncirinin müvafiq mərhələlərində işləyən şəxslərin işə qəbul olunmazdan əvvəl və işlədikləri müddət ərzində Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə müəyyən edilmiş qaydada və müddətdə məcburi tibbi müayinədən keçmələrinə, habelə gigiyenik təlimlərə cəlb olunmalarına nəzarət etmək;

3.0.18. qida zəncirinin müvafiq mərhələlərində işləyən və çalışdıqları istehsalatın və ya gördükləri işin xüsusiyyətləri ilə əlaqədar olaraq yoluxucu və parazitar xəstəlikləri yaymaq təhlükəsi yaradan şəxslərin, habelə sanitariya norma və qaydalarını, gigiyena normativlərini müntəzəm yerinə yetirməyən şəxslərin işdən kənarlaşdırılmasını tələb etmək;

3.0.19. qida zənciri obyektlərində dezinfeksiya, dezinseksiya, deratizasiya, fumiqasiya işlərinə, həmçinin baytarlıq, fitosanitar və qida təhlükəsizliyi ilə bağlı digər tədbirlərin həyata keçirilməsinə nəzarət etmək;

3.0.20. ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri və onların vəzifəli şəxsləri tərəfindən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirmək;

3.0.21. aidiyyəti dövlət orqanları ilə birlikdə rasional fizioloji normaların hazırlanmasında iştirak etmək;

3.0.22 qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya olunması) ilə bağlı aidiyyəti üzrə təklif vermək;

3.0.23. qida təhlükəsizliyi ilə bağlı dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə aparılan, bu Əsasnamənin 3.0.10-cu yarımbəndində nəzərdə tutulan yoxlama tədbirləri zamanı qanunla müəyyən olunmuş hallarda və qaydada məhsulun tədqiqi (sınağı), qida məhsullarının minimum keyfiyyət, qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi üçün məhsul nümunələrinin götürülməsi barədə qərar qəbul etmək, akkreditasiya olunmuş laboratoriyalarda həmin nümunələrin vahid metodika əsasında qiymətləndirilməsini təmin etmək, aşkarlanmış pozuntuların aradan qaldırılması üçün göstərişlər vermək və qanunla nəzərdə tutulmuş digər tədbirlər görmək;

3.0.24. qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə, o cümlədən müvafiq sahədə ticarət, ictimai iaşə, məişət və digər növ xidmət qaydalarına riayət olunmasına dövlət nəzarətini həyata keçirmək, bu sahədə qanun pozuntularının qarşısının alınması və pozuntuya yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi məqsədilə tədbirlər görmək;

3.0.25. qida və yem məhsullarının təhlükəsizliyinə dair tələblər barədə istehlakçıların tam, dəqiq və ən yeni informasiya ilə təmin edilməsi məqsədilə tədbirlər görmək, o cümlədən qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların istifadəçilər üçün açıq reyestrini aparmaq;

3.0.26. qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının və qanuni mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması üçün tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.27. qida məhsullarının saxlanması və ya satışı zamanı mal qonşuluğunun və satılmış malların dəyişdirilməsi və ya geri çağırılması qaydalarının pozulmasına qarşı tədbirlər görmək;

3.0.28. təhlükəli və kütləvi zəhərlənməyə (xəstəliklərə) səbəb olmuş, habelə bu cür hallara səbəb ola biləcəyinə əsaslı sübutlar olan, muxtar respublikada istehsal edilən və ya muxtar respublikaya idxal edilmiş qida məhsullarının dövriyyədən çıxarılması və qida təhlükəsizliyi baxımından yaranmış fövqəladə vəziyyətin aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə təxirəsalınmaz tədbirlər görmək;

3.0.29. qida təhlükəsizliyi baxımından əhali arasında baş vermiş qida zəhərlənmələri hallarını təhlil etmək, habelə onların yayılmasının qarşısının alınmasına və aradan qaldırılmasına yönəldilmiş tədbirlər görmək;

3.0.30. idxal olunan qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara idxal sağlamlıq aktı vermək, qida və yem məhsullarının ixracı ilə bağlı idxalçı ölkələr tələb etdiyi halda sağlamlıq sertifikatı vermək;

3.0.31. fəaliyyət istiqamətləri üzrə aparılan araşdırmalar, monitorinqlər, yoxlamalar, ekspertizalar və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və informasiya bankı yaratmaq;

3.0.32. aidiyyəti dövlət orqanları ilə birlikdə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların sınağı üçün laboratoriya sisteminin inkişafı ilə bağlı təkliflər vermək;

3.0.33. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahədə sahibkarlığın inkişafı ilə bağlı tədbirlərin və sahibkarlığa dövlət dəstəyi sahəsində dövlət tənzimləməsinin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.0.34. qida və yem məhsulları istehlakçılarının, habelə qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarların qida təhlükəsizliyi ilə bağlı maarifləndirilməsi, iqtisadi və hüquqi informasiya ilə təmin edilməsi üçün aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək, sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq təcrübənin tətbiqini təmin etmək, sahibkarların rəqabət qabiliyyətinin artırılması istiqamətində təkliflər hazırlamaq;

3.0.35. genetik modifikasiya olunmuş orqanizmlərin, qida və yem məhsullarının qanunsuz dövriyyəsinə qarşı qanunda nəzərdə tutulmuş tədbirlər görmək;

3.0.36. genetik modifikasiya olunmuş, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış orqanizmlərin və tərkibində bu orqanizmlərin özü və ya materialı olan qida məhsullarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, habelə onların aşkarlanması və bu məhsullardan yarana biləcək təhlükənin təyin edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək;

3.0.37. muxtar respublikaya idxal olunan qida və yem məhsullarının ölkənin gömrük sərhədindən keçirilərkən genetik modifikasiyaya məruz qalıb-qalmadığını, o cümlədən Qanuna uyğun olaraq genetik modifikasiya olunmuş orqanizmlər və yem məhsullarının qeydiyyatının olub-olmamasını yoxlamaq;

3.0.38. qida zənciri subyektlərindən məhsulların izlənilməsi ilə bağlı sənədləri, habelə malik olduğu izləmə sistemi və prosedurları haqqında məlumatları tələb etmək;

3.0.39. sağlam və rasional qidalanmanı təşviq etmək;

3.0.40. qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi üçün nəzərdə tutulan obyektlərin tikintisi və yenidən qurulmasına dair layihələrə rəy vermək;

3.0.41. Qanunla müəyyən edilmiş qaydada əhalini insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorumaq;

3.0.42. muxtar respublikanın ərazisini xarici ölkələrdən keçə biləcək yoluxucu xəstəliklərdən qorumaq üçün tədbirlər görmək;

3.0.43. heyvan, heyvandarlıq məhsulları və xammal sahibləri tərəfindən Azərbaycan Respublikasının baytarlıq qanunvericiliyinə əməl edilməsinə nəzarət etmək;

3.0.44. baytarlıq preparatlarının, vitaminlərin, yem əlavələrinin, habelə mal-qaranın boy artımını sürətləndirən və məhsuldarlığını yüksəldən bioloji stimulyatorların və hormonların təhlükəsizliyinə, istehsalına, saxlanmasına, heyvandarlıqda və baytarlıqda tətbiqinə, dövriyyəsinə qanunla müəyyən edilmiş qaydada nəzarəti həyata keçirmək;

3.0.45. epizootiya əleyhinə tədbirlər planı hazırlamaq və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə razılaşdırmaqla təsdiq etmək;

3.0.46. beynəlxalq ticarətdə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OİE) və digər beynəlxalq təşkilatların tələblərinə uyğun öhdəliklərə və qaydalara əməl edilməsi üçün tədbirlər görmək;

3.0.47. mülkiyyət formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslərə baytarlıq xidmətlərin göstərilməsinə nəzarət etmək;

3.0.48. muxtar respublika büdcəsi və qanunla qadağan edilməyən digər mənbələr hesabına alınmış baytarlıq və fitosanitariya preparatlarının saxlanmasına, daşınmasına, dövriyyəsinə, istifadəsinə və keyfiyyətinə nəzarət etmək;

3.0.49. baytarlıq sahəsində uçot və hesabat aparılmasını təmin etmək, həmçinin heyvanların karantin xəstəliklərinin statistik uçotunu aparmaq;

3.0.50. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin sınağını həyata keçirmək;

3.0.51. muxtar respublikada fitosanitar vəziyyəti araşdırmaq və bitki mühafizəsi tədbirlərini həyata keçirmək;

3.0.52. karantin obyekti olan bitki zərərvericilərinin, xəstəlik törədicilərinin və alaq bitkilərinin muxtar respublikanın ərazisinə daxil olmasına nəzarət etmək;

3.0.53. muxtar respublikanın ərazisində karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğu təsdiq edildikdə, onlarla mübarizə aparmaq məqsədilə həmin ərazidə karantin elan olunması barədə təklif vermək;

3.0.54. pestisidlərin, bioloji preparatların, aqrokimyəvi maddələrin və digər bitki mühafizə vasitələrinin istehsalına, saxlanmasına, satışına, tətbiqinə, idxalına və ixracına, həmçinin bütün növ bitkiçilik məhsullarında, yem məhsullarında və torpaqda qalıq miqdarına nəzarət etmək;

3.0.55. muxtar respublikaya gətirilmiş və muxtar respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışı keçirmək və laboratoriya ekspertizasına cəlb etmək;

3.0.56. pestisidlərin, bioloji preparatların, aqrokimyəvi maddələrin və digər bitki mühafizə vasitələrinin idxalı, ixracı, istehsalı, saxlanması, satışı və tətbiqi ilə məşğul olan hüquqi və fiziki şəxslərin Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyindən alınmış məlumata əsasən uçotunu aparmaq;

3.0.57. muxtar respublikada pestisidlərin, aqrokimyəvi maddələrin, bioloji və digər preparatların dövlət sınağını aparmaq, habelə baytarlıq preparatlarının aprobasiyasını, ekspertizasını, sınaqdan keçirilməsini, həmçinin aprobasiyasına dair rəy verilməsini təmin etmək;

3.0.58. bioloji aktiv qida məhsullarının emalına, dövriyyəsinə, utilizasiyasına və məhv edilməsinə nəzarət etmək;

3.0.59. qida və yem məhsullarının qablaşdırılması və etiketlənməsi zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ-hüquqi aktlarda nəzərdə tutulan tələblərin yerinə yetirilməsinə nəzarət etmək;

3.0.60. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan xarici ölkələr və idxalı qadağan olunmuş mallar barədə məlumatların real vaxt rejimində aidiyyəti dövlət orqanının informasiya sisteminə ötürülməsini təmin etmək;

3.0.61. heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət məqsədilə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsini aparmaq;

3.0.62. heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatını həyata keçirmək;

3.0.63. dövlət baytarlıq nəzarətinə cəlb edilən məhsulların istehsalı, tədarükü, saxlanması, emalı və satışı, habelə daşınması ilə bağlı dövlət baytarlıq nəzarəti obyektlərinin yerləşdirilməsinə, tikintisinə, bərpasına və istismara verilməsinə rəy vermək;

3.0.64. qida və yem məhsullarına dair beynəlxalq standartların könüllü tətbiqi üzrə məsləhət və təlim, qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyi və qida məhsullarının minimum keyfiyyət göstəriciləri üzrə laboratoriya tədqiqi (sınağı), ekspertiza və tədqiqat (ölçmə) xidmətlərinin göstərilməsi fəaliyyətini təşkil etmək;

3.0.65. fəaliyyət istiqamətləri ilə bağlı insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, onların pozulmasının qarşısını almaq;

3.0.66. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, fəaliyyət istiqamətləri ilə bağlı elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, istehsalatda tətbiqi üzrə tövsiyələr hazırlamaq, habelə müvafiq sahədə sahibkarlar tərəfindən qabaqcıl beynəlxalq idarəetmə sistemlərinin tətbiqini təşviq etmək;

3.0.67. fəaliyyət istiqamətləri ilə bağlı ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.0.68. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların öz vəzifələrini yerinə yetirmək üçün istifadə etdikləri məqsədli büdcə vəsaitinin və digər vəsaitlərin xərclər smetalarını təsdiq etmək və onlardan təyinatı üzrə istifadəyə nəzarəti təmin etmək;

3.0.69. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.70. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.0.71. fəaliyyət istiqamətləri üzrə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.0.72. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.0.73. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların işini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.0.74. Agentliyin fəaliyyət istiqamətləri və vəzifələri dairəsində elmi tədqiqatlar aparılmasını təşkil etmək;

3.0.75. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə, şikayət və təkliflərə baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.76. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.0. Agentliyin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.2. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.3. fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;

4.0.4. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi şirkətləri, elmi təşkilatları müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.0.5. xüsusi bülletenlər və digər çap məhsulları buraxmaq;

4.0.6. fəaliyyət istiqamətləri ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin muxtar respublikada icrasına nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

4.0.7. fəaliyyət istiqamətləri üzrə aidiyyəti dövlət orqanlarına təkliflər vermək;

4.0.8. beynəlxalq tədbirlərin, o cümlədən forumların, konfransların, sərgilərin və digər tədbirlərin işində iştirak etmək;

4.0.9. istifadəsində olan dövlət əmlakına dair hüquqları həyata keçirmək;

4.0.10. fəaliyyət istiqamətləri üzrə xarici dövlətlərin təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və digər şəxslərlə danışıqlarda iştirak etmək;

4.0.11. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək məqsədilə tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslərin qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların ilkin istehsal, istehsal, emal, dövriyyə, məhv edilmə və utilizasiya üçün nəzərdə tutulmuş müvafiq sahələrinə daxil olmaq, nəzarət sahəsinə aid məlumat

Ardı 5-ci səhifədə

və sənədləri almaq, satılan və ya satılması nəzərdə tutulan qida və yem məhsullarının müayinəsini həyata keçirmək;

4.0.12. müvafiq sahədə elmi-texniki, iqtisadi və normativ-hüquqi məlumat bazalarını yaratmaq, məsləhət xidmətləri göstərilməsini təşkil etmək;

4.0.13. müvafiq sahədə islahatların aparılmasına dair təkliflər vermək;

4.0.14. müvafiq sahədə əldə olunmuş müsbət təcrübəni öyrənmək və geniş yaymaq məqsədilə lazımi tədbirlər görmək, məlumatlar vermək;

4.0.15. vəzifə və hüquqlarının həyata keçirilməsi ilə bağlı məhkəməyə iddia (ərizə) ilə müraciət etmək və öz adından məhkəmədə iştirak etmək;

4.0.16. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin strukturunu, Agentliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say tərkibini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri müəyyən edir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Agentliyin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Agentliyin sədri (bundan sonra – sədr) rəhbərlik edir. Sədr Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Sədrin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Sədrin müavinləri sədrin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və Elmi-Texniki Şuranın əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ-hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) nizamnamələrini təsdiq edilmək üçün təqdim edir;

5.5.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların (strukturu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.5.6. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.7. Agentliyin Aparatının və onun strukturuna daxil olan qurumların işçilərini, habelə Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların rəhbərlərini və onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir;

5.5.8. Naxçıvan Muxtar Respublikasının baş dövlət baytarlıq müfəttişi və baş dövlət fitosanitar müfəttişini təyin edir;

5.5.9. Agentliyin Aparatının və onun strukturuna daxil olan qurumların işçiləri, habelə Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların rəhbərləri və onların müavinləri barədə həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.10. müəyyən olunmuş əməkhaqqı və işçilərin say həddi daxilində Agentliyin regional bölmələrini yaradır və ləğv edir;

5.5.11. əmr və sərəncam formasında qeyri-normativ-hüquqi aktlar qəbul edir və onların, habelə Agentlikdə qəbul edilmiş normativ-hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.12. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.13. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlarına, hüquqi və fiziki şəxslərinə münasibətdə Agentliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq sənədləri imzalayır;

5.5.14. Agentliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün muxtar respublika büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.15. muxtar respublika büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

5.5.16. işçilərin attestasiyası (dövlət qulluqçuları istisna olmaqla), ixtisaslarının artırılması və onların peşə hazırlığının gücləndirilməsi üçün müvafiq tədbirlər görür;

5.5.17. muxtar respublika büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini Agentliyin Aparatı və onun regional bölmələri arasında bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.18. muxtar respublika büdcəsindən ayrılmış vəsait və ştat sayı hüdudlarında, müəyyən olunmuş qaydada Agentliyin tabeliyində digər qurumların yaradılması, yenidən təşkili və ləğvi barədə müvafiq təkliflər verir;

5.5.19. Agentliyin Aparatının və onun strukturuna daxil olan regional bölmələrin işçilərinə ixtisas dərəcələri verir.

5.6. Agentliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini və ya vəzifələrinin müvəqqəti olaraq icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), sədrin müavinlərindən və Agentliyin rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə, həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Agentliyin Kollegiyasının üzvlərinin sayını və tərkibini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri təsdiq edir.

5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

5.11. Agentliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ-hüquqi aktları qəbul edir:

5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ-hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən Agentliyə tapşırılmış konkret normativ-hüquqi aktlar;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ-hüquqi aktlar;

5.11.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları ilə razılaşdırılmalı olan normativ-hüquqi aktlar;

5.11.5. sədrin təşəbbüsü ilə Agentliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ-hüquqi aktlar;

5.11.6. bu Əsasnamənin 5.11.1-5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Agentliyin Kollegiyasının qəbul etdiyi normativ-hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklər edilməsi barədə normativ hüquqi aktlar.

5.12. Agentliyin Kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Kollegiyanın iş qaydasını sədr müəyyənləşdirir və iclaslarını mütəmadi olaraq sədr çağırır.

5.14. Agentliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, sədr bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat verərək, öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə çatdıra bilərlər.

5.15. Agentliyin Kollegiyasının iclaslarına digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.

5.16. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər.

5.17. Agentlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin və ya onun struktur (regional) bölmələrinin qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 3 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin strukturu

1. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Aparatı (şöbələr və sektorlar).
2. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələri.

# Gülşənabad kəndində yeni içməli su xətti istifadəyə verilib



Noyabrın 3-də Babək rayonunun Gülşənabad kəndində yeni içməli su xəttinin istifadəyə verilməsi mərasimi keçirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyi və ölkəmizin suverenliyinin bərpası ilə əlamətdar olan bir ildə əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən tədbirlərin keçirilməsi olduqca əhəmiyyətlidir. Ötən dövrdə Gülşənabad kəndində içməli su problemi ilə əlaqədar sakinlər tərəfindən Səlahiyyətli Nümayəndəliyə müraciətlər daxil olub. Nəticədə, aidiyyəti üzrə tapşırıqlar verilərək məsələ öz həllini tapıb.



Samir Seyidəhmədli qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda müəyyənləşdirilən 11 prioritet istiqamətdən biri də əhalinin içməli su təminatı ilə bağlıdır. Artıq bu sahədə müəyyən tədbirlər görülüb və 2024-cü ildə bütün muxtar respublikada, o cümlədən Babək rayonunun yaşayış məntəqələrində sakinlərin içməli su təminatı yaxşılaşdırılacaq.

Səlahiyyətli nümayəndənin müavini həm yeni içməli su xəttinin istifadəyə verilməsi, həm də qarşıdan gələn Zəfər Günü ilə əlaqədar sakinlərə təbriklərini çatdırıb.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov görülən işlərə görə sakinlər adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli bildirib ki, Gülşənabad kənd sakinləri tərəfindən bu ilin avqust ayından daxil olan müraciətlərə baxılıb və içməli su təminatının yaxşılaşdırılması üçün meliorasiya sahəsinin mütəxəssisləri tərəfindən müvafiq işlər həyata keçirilib.

Yeni istifadəyə verilən subartezian quyusu və içməli su xətti ilə tanışlıq olub. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Faiq Şıxəliyev qeyd edib ki, sakinlərin müraciəti əsasında mütəxəssislər məsələyə yerində baxıb və bir subartezian quyusu qazılıb, 50 metr uzunluğunda yeni içməli su xətti çəkilərək mövcud xəttə birləşdirilib. Yeni qazılan subartezian quyusunun su sərfi saatda 40 kubdur.



Ümumilikdə, iki subartezian və bir kaptaj vasitəsilə Gülşənabad kəndindəki 90 ev içməli su ilə təmin olunub. Müvafiq Dövlət Proqramına əsasən muxtar respublika üzrə içməli su təminatı sahəsində görüləcək işlərin böyük hissəsi Babək rayonunu əhatə edir. Bu istiqamətdə içməli suyun yaxşılaşdırılması üçün rayonun Sirab kəndində 1 subartezian quyusu qazılıb, 5 kilometr uzunluğunda xətt çəkilib. Yaxın zamanda kəndə içməli suyun verilməsi təmin olunacaq. Güznüt kəndində 3 kilometr yeni boru xətti çəkilərək əhaliyə içməli suyun verilməsi təmin olunub. Çeşməbasar kəndində isə sakinlərin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədilə işlərə başlanılıb. Qaraqala, Kalbaoruc və Vayxır kəndlərinin içməli suya olan tələbatının yaxşılaşdırılması üçün yeni subartezian quyusunun qazılması və boru xətlərinin çəkilişi nəzərdə tutulub.

Sonra kənd sakinlərinin problemləri dinlənilib, onları narahat edən məsələlər nəzarətə götürülüb.

**“Şərq qapısı”**

# Vətən sevgisi örnəyi məğrur oğullar

*Milli ordumuzun tarixinizə qızıl hərflərlə həkk etdiyi şanlı Qələbəmizlə nəticələnən 44 günlük haqq savaşından artıq üç il ötür. Xalqımıza zəfər sevincini yaşadan qələbəmizin memarları – torpaq uğrunda canını fəda edən igid qəhrəmanlarımıza və Vətən mücahidləri fədakar qazilərimizə əbədiyyətə qədər borcluyuq. Onların qəhrəmanlıq hekayələrini, məşəqqətli mübarizə yollarını bilmək hər birimizin mənəvi borcudur. Bu borcu qismən yerinə yetirmək üçün haqq-ədalət mücadiləsindən qazi olaraq qayıdan bir neçə Vətən fədaisi ilə görüşüb həmsöhbət olduq.*

İlk müsahibimiz ***Pərviz Muradov***dur. Pərviz Babək rayonunun Nehrəm kəndində anadan olub. Ali təhsilini



Naxçıvan Müəllimlər İnstitutunda alıb. 2017-ci ilin iyun ayından Əlahiddə Ümumqoşun Ordunun “N” briqadasının xüsusi təyinatlı taborunda gizir hərbi rütbəsi verilməklə məxfi hissə rəisi vəzifəsinə təyin edilib. Müsahibimiz deyir: – 2020-ci il 27 sentyabr tarixdə Ermənistanın növbəti təxribatının qarşısının alınması üçün başlanan Vətən müharibəsi, xalqın və ordunun Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin “dəmir yumruğ”u ətrafında birləşməsi biz Naxçıvan xüsusi təyinatlılarının da böyük ruh yüksəkliyinə səbəb oldu. Biz də Vətən müharibəsində iştirak etmək üçün böyük səbirsizliklə əmr verilməsini gözləyirdik. 11 oktyabrda isə, nəhayət, gözlədiyimiz gün gəlib çatdı və biz döyüş bölgəsinə ezam olunduq. Döyüşə Hadrut istiqamətindən başladıq. 23 oktyabr tarixdə Tuğ kəndi istiqamətində düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldım.

Cənab Prezident tərəfindən “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Hərbi xidmətdə fərqlənməyə görə” medallarla təltif olunmuşam. Qələbəmizi Ali Baş Komandanımıza, şəhidlərimizə, qazi qardaşlarımıza, əsgər və zabitlərimizə borcluyuq. Allah Azərbaycan əsgərini qorusun.

Digər bir müsahibimiz isə Vətən müharibəsində sağlamlığını itirərək öz evinə qazi kimi qayıdan baş leytenant ***İbrahim Cəlilov*** oldu. O, Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam et-



dirib. Müsahibimiz bildirdi ki, müxtəlif illərdə Azərbaycan Ordusunun sıralarında taqım komandiri, bölük komandiri və tabor komandirinin müavini vəzifələrində xidmət edib. İkinci Qarabağ müharibəsində Vətənin müdafiəsinə Füzuli rayonu istiqamətində başlayıb: – Döyüş tapşırıqlarının icrası müxtəlif ərazi relyeflərində hakim yüksəkliklərdə, yaşayış məntəqələrində, dağlıq, düzənlik və meşəlik ərazilərdə yerinə yetirilirdi. Düşmənin 30 ilə yaxın müddətdə bu ərazilərdə müxtəlif bunker və manеələr yaratması rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətinin əzmi və iradəsi nəticəsində döyüş tapşırıqlarının icrasına heç bir təsir göstərə bilmədi. Əlbəttə, azadlıq və qələbə qanla yazılır. Biz işğal altında olan əraziləri azad etdiyimiz müddətdə hər bir qarış torpaq üçün addım-addım irəliləyirdik. Döyüş tapşırıqlarının icrası zamanı döyüş yoldaşlarımızdan şəhidlik zirvəsinə ucalanlar, yaralananlar da olurdu. Mən də 21 oktyabr tarixdə Xocavənd rayonunun Düdükçü kəndi istiqamətində düşmən tərəfindən atılmış artilleriya mərmisinin partlayışı nəticəsində yaralanmışam.

Müsahibimiz deyir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin müdafiəsi uğrunda şəhid olmuş və sağlamlığını itirmiş şəxslərə təqaüd təyin edilməsi, mənzil və avtomobillər verilməsi onlara göstərilən böyük dövlət qayğısıdır. O da cənab Prezidentin müvafiq sərəncamları ilə “Vətən müharibəsi iştirakçısı”, “Şücaətə görə”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Vətən müharibəsi iştirakçısı, baş leytenant ***Əmrah Məmmədov***la da həmsöhbət olduq. Müsahibimiz müharibə xatirələrini bizimlə belə bölüşdü: – 2020-ci il sentyabr ayının 27-i düşmən təxribatının qarşısını almaq məqsədilə Füzuli rayonunda, “Yastı təpə” istiqamətində döyüşə başladıq. Bir neçə gün sonra ayağımdan qəlpə yarası aldım. Dörd gün xəstəxana şəraitində



Vətən uğrunda döyüşlərdə.
Sağdan üçüncü – Əmrah Məmmədov

müalicə edildikdən sonra yenidən öz istəyimlə döyüşlərə qatıldım. Mənim üçün müharibə müddətində unudulmaz hadisələr çox olub. Cəbrayıl rayonu istiqamətində hərəkət edərkən erməni dəstələri bizə pusqu qurmaq üçün gizlənmişdi. Sərrat atəşlərimiz düşməni, sözün əsl mənasında, tikə-parça etdi. Cəbrayıldan Qubadlıya texnikaları aparmalı idik. Səkkiz nəfərlik qrupumla Cəbrayıl-Qubadlı körpüsünü tapdıq. Ancaq körpü üç yerdən partladılmışdı. Həmin körpüdə döyüş yoldaşlarımla iyirmi üç ədəd tank əleyhinə mina və dörd ədəd piyada əleyhinə mina təmizlədik. Təəssüf ki, yoldaşımız Başir Məmişov minaya düşərək bir ayağını itirdi. Bütün çətinliklərə baxmayaraq, texnikaları keçirməyi bacardıq. Hava işıqlanan zaman, təxminən, saat 12 radələrində düşmən tərəfindən açılan artilleriya mərmisinin yanımıza düşməsi ilə xəsarət aldıq. Ən son xatırladığım məhz bu idi, atəşin zərbəsi ilə uzağa atıldığımı hiss etdim, sonra gözümü xəstəxanada açdım.

Vətən müharibəsi məşəqqətli və çətin olduğu qədər həm də qəhrəmanlıq və mübarizlik meydanı idi. Dövlətimiz bizim şücaətimizi qiymətləndirdi və mənim kimi minlərlə hərbçi müxtəlif medallarla təltif olundu. Mən də “Vətən müharibəsi iştirakçısı”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif olunmuşam. Allahdan şəhidlərimizə rəhmət diləyir, bizə göstərilən hörmət və diqqətə görə təşəkkür edirik.

*Söhbətimizdən də göründüyü kimi igid Vətən oğullarının hər birinin döyüş yolu bir qəhrəmanlıq hekayəsidir. Bu hekayələrin işıqlandırılması, gənclərə aşılanması isə gələcək qəhrəmanların yetişdirilməsi üçün çox əhəmiyyətlidir.*

✍ **Aysel YUSİFZADƏ**
✍ **Bülbül QULİYEVA**

# Görüş olub



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Ticarət Nazirliyi arasında “Naxçıvan Muxtar Respublikasına interaktiv təhsil yardımı” layihəsi ilə əlaqədar bağlanmış müqavilə əsasında Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində Huawei Tech. Azərbaycan Məhdud Məsuliyyətli Cəmiyyətinin Baş Direktoru David Xu ilə görüş keçirilmişdir.

Qeyd edək ki, müqavilə çərçivəsində Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, həmçinin Nazirliyə tabe müəssisələrin texniki infrastrukturunun qurulması, data mərkəzi və elektron platformanın yaradılması nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanın yerli üzüm sortlarının DNT analizləri: nəticələr nəyi sübut edir?

*Hər bir xalqın daha qədim mövcudluq tarixi, əkinçilik mədəniyyəti ayrı-ayrı millətlərin məskunlaşdığı müvafiq bölgələrə məxsus kənd təsərrüfatında becərilən bitkilərin genofondunun zənginliyi ilə müşayiət olunur. Daha qədim xalqlar becərilən bitkilərin daha zəngin genofonduna malikdirlər. Müasir dövrdə dünyanın bu və ya digər regionlarında məskunlaşmış ayrı-ayrı millətlərin əkinçilik mədəniyyəti tarixində xalq seleksiyasına məxsus olan kənd təsərrüfatında becərilən müxtəlif bitki sortlarının genofondunun fərqli genetik xüsusiyyətləri molekulyar DNT analizləri ilə aşkarlanır. Muxtar respublikamızın üzüm genofondunda ayrı-ayrı sortların DNT analizində genetik markerlərin, profillərin zənginliyinin özünəməxsusluğu ilə səciyyələnir.*



Xalqların tarixi əkinçilik mədəniyyəti dövründə kənd təsərrüfatında yeni yaradılan ayrı-ayrı becərilən sortlara özünəməxsus adlar verilməklə gələcək nəsillərə ötürülmüşdür. Belə adlandırmalar, əsasən, ərazinin, becərdiyi şəxsin, həmçinin sortun əmtəə xüsusiyyətləri ilə səciyyələnən irsi əlamətlərlə müşayiət olunur. Bu baxımdan Naxçıvan təbii iqtisadi bölgəsi də çox zənginliklərə malikdir. Burada xalqlar arasında ticarət, mədəni və kənd təsərrüfatı məhsullarının mübadiləsi nəticəsində iqtisadi əhəmiyyətli ayrı-ayrı bitki sortları müxtəlif dövlətlərin ərazisinə yayılaraq becərilməsinə başlanılmışdır. Vaxtilə Naxçıvan ərazisində becərilən çoxlu sayda üzüm sortları buradan keçən səyyahların, tacirlərin diqqətini cəlb etdiyindən, bu sortlar dünyanın bir sıra ölkələrinə yayılmış və müvafiq sinonimlərlə adlandırılmışdır. İranda, Rusiyada, Ukraynada, Ermənistanda, Gürcüstanda belə aborigen sortlarımız çoxluq təşkil edir. Hazırda ərazisi qədim türk torpaqları olan, indiki Ermənistan Respublikası adlandırılan Qərbi Azərbaycan ərazisində becərilən aborigen üzüm sortlarımız 1947-ci ildə rəsmi qaydada adları erməniləşdirilərək digər adlarla becərilməkdədir.

Müasir dövrdə molekulyar genetika elminin sürətli inkişafı bitki növ və sortlarında molekulyar DNT analizlərinin aparılması yolu ilə ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin mənşəyini, hansı bölgəyə və xalqa məxsus olmasını aydınlaşdırmağa imkan verir. Bu istiqamətdə Azərbaycan Respublikası Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun yaxından köməyi ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bioresurslar İnstitutunda Naxçıvan Muxtar Respublikasında becərilən 150-dən çox üzüm genofondundan ələyi, hənəqırna, uzunsalxımlı, Naxçıvan qara kişmişi, Naxçıvan çəhrayı kişmişi, Naxçıvan qırmızı kişmişi, qırmızı sahibi, qırmızı səabi, Naxçıvan inəkəmcəyi, əsgəri, nəqşəbi, misqalı və digər yerli sort nümunələri Almaniya Üzümçülük İnstituna göndərilərək molekulyar səviyyədə DNT analizindən keçirilmişdir. Əldə olunan nəticələrin dünya üzüm genofondu üzrə DNT analizləri ilə genetik müqayisəsi aparılmışdır. Nəticədə, bu bölgəyə məxsus olan üzüm sortlarında DNT molekulundakı genlərin lokuslarında regiona məxsus nukleotid ardıcıllığının olduğu aşkar edilmişdir. DNT analizlərində bu ərazidə becərilən üzüm sortlarının genotipində genetik profilləri əsasında unikal profillər, sinonimlər, omonimlər özünəməxsusluğu ilə diqqəti cəlb edir. Bu tədqiqatların ən vacib nəticəsi olaraq Beynəlxalq Üzüm Sortları Kataloqu Bazasına təhrif olunaraq erməni, rus, Ukrayna və digər xalqların adları altında təqdim edilmiş üzüm sortlarımızın məhz Naxçıvan bölgəsinə mənsub bir mənşəyə malik olduqları aşkar edilmişdir. Bu da xalqımızın zəngin seleksiya nümunələrinə malik olduğunun göstəricisidir.

Beləliklə, muxtar respublikamızda becərilən ayrı-ayrı üzüm sortlarının genetik DNT analizlərinin nəticələri əsasında onların mənşəyi, bu bölgəyə məxsus olması araşdırılır, qorunur, qədim dövrlərdən aparılaraq digər respublikaların ərazisində yayılan genotiplərin Beynəlxalq Üzüm Sortlarının Kataloqu Bazasında təhrif olunmuş əzəli adları bərpa edilir. Bu da bu bölgədə məskunlaşmış xalqımızın tarixən ən qədim və zəngin əkinçilik mədəniyyətinə malik olduğunu sübut edir.

**Varis QULİYEV**
***aqrar elmlər doktoru, dosent***

# Şəhər birinciliyi keçirilib



*Naxçıvan Dövlət Universitetinin İdman Kompleksində Vətən müharibəsi şəhidləri Şahmar Quliyev və Araz Məmmədovun xatirəsinə həsr olunmuş tam orta məktəblərin oğlan komandaları arasında Naxçıvan şəhər birinciliyi keçirilib.*

Birinciliyin keçirilməsində əsas məqsəd şəhidlərin əziz xatirəsinin yad edilməsi və basketbol idman növünə marağın artırılması olub. Açılış mərasimində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra birinciliyə start verilib. 8 komandanın iştirak etdiyi birinciliyin yekununa əsasən 3 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək I, 17 nömrəli tam orta məktəbin komandası II, 16 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülüb.

Sonda qalib komandalara və komanda üzvlərinə təşkilatçıların diplomları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# İdmançımız peşəkar döyüşdə qələbə qazanıb

Türkiyənin İstanbul şəhərində kikboksun K-1 versiyasında “Akın Fight Arena” peşəkar döyüş gecəsi keçirilib. Hadımköy İdman Kompleksində reallaşan tədbirdə qadın və kişi kikboksçuların “Kombat K-1 kuboku” uğrunda mübarizəsi izlənilib.



Naxçıvan Kikboksinq Federasiyasının idmançısı Qənbər Əzimov (80 kiloqram) türkiyəli Berke Tuncerlə qarşılaşıb. Görüşdən qalib ayrılan təmsilçimiz əsas mükafata sahib çıxıb.

Qeyd edək ki, Qənbər Əzimov həm də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşıdır. Karyerası ərzində kikboks üzrə WAKO dünya və Avropa birinciliklərində 2 gümüş, 1 bürünc, WPKA dünya birinciliyində qızıl medal qazanıb, 6 dəfə Azərbaycan çempionu olub. 16 peşəkar döyüş keçirib və bunlardan 15-də qələbə, 1-də isə bərabərlik qeydə alınıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Culfa rayonunun Xanəgah kənd sakini Məmmədov Akif Əyyub oğlunun adına olan JN-119$^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və 1216008400 qeydiyyat və MH-0051204 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Gömür kəndində Şirinov Əmir Yasin oğlunun adına verilmiş MH-0045100 seriya nömrəli dövlət reyestrindən çıxarış və 230 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Türkeş kəndində Hüseynova Göyçək Çölü qızının adına verilmiş JN-058$^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qarabağlar kəndində yaşamış Hüseynova Zivər Qulamhüseyn qızına məxsus JN-1390$^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Salmanov Zaur Abbasqulu oğlunun adına verilmiş JN-983 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQqapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 644